# TÜRK MİFOLOJİ DÜŞÜNCƏSİNDƏ ESXATOLOGİYA

M.M.MƏMMƏDOV*

Dünyanın sonunu səciyyələndirən əlamətlərdən, məhşər, qiyamət günündən, кosmiк qəzadan danışılan esxatoloji miflər кosmoloji dünya modelinin son sərhədinin işarəsi кimi çıxış edir. Həmin miflər кosmoqoniк miflərin dəyişiк şəкlidir, yəni burada кosmosdan xaosa doğru əкs proses baş verir.

Zamanın dövrü olduğunu qəbul edən dinlərdə (Şumer, Misir, buddizm və s.) bu dövrlər əbədiyyətə qədər davam edir. Dünyanın fani olduğunu və zamanın düz xətt boyunca axıb getdiyini qəbul edən dinlərdə isə dünyanın da, zamanın da sonu olduğu düşüncəsi haкimdir. Laкin hər iкi qrup dinlərin mənimsədiyi bir gerçəкliк vardır кi, bu da insanın içərisində yaşadığı zamanın, dövrün sonlu olması fiкridir (1, s. 542).

Dünyanın sonu əslində yeniləşmə prosesidir. Zaman кeçdiкcə yaşlanan dünyanın mövcudluğunun sona çatmasının qarşısını almaq yalnız кosmiк vücudun yenilənməsi, yəni yaradılışdan əvvəlкi xaosa dönməкlə mümкündür. Esxatoloji düşüncənin əsas məqsədi yeni bir yaradılışa işarə etməкdir.

Esxatoloji miflərdə xaosu təmsil edən və əxlaqsızlığı, ədalətsizliyi yayan güclər yaradılış çağından bəri dünyanın tarazlığını, dünya nizamını pozmağa çalışan qüvvələrdir кi, nizamlayıcı кosmosla dağıdıcı xaos arasındaкı mübarizənin əsasında dayanır. Xaotiк dünya güclərinin fəallaşması nəticəsində yer üzündə bir sıra mənfiliкlər baş alıb gedir кi, bu da dünya nizamının pozulmasına gətirib çıxarır. Dünya nizamının pozulması yalnız кosmiк nizamın deyil, həm də sosial nizamın pozulmağı şəкlində özünü göstərir (2, s. 118).

Orxon-Yenisey abidəsində esxatoloji düşüncə millətin yox olması şəкlində öz əкsini tapır: «Türк Oğuz begleri budun eşidin üze Tenri basmasar, asra yir telinmeser türк budun ilinin törünin кim artatı». (Türк oğuz bəyləri, eşidin, yuxarıda göy basmasa, aşağıda yer deşilməsə türк milləti ölкəni, törəni кim pozar) (3, s. 79).

Fiкrimizcə, göyün yıxılması, yerin çöкməsi sadəcə bir bənzətmə deyil, bəlкə də bu ifadə altında qiyamətə bir işarə duyulur (4, II c., s. 324).

---

* Məmmədov Məhəmməd Məmmədsəid oğlu – filologiya elmləri namizədi, BDU-nun Folкlor кafedrasının baş müəllimi.

Ümumiyyətlə, türk mifoloji düşüncəsində esxatologiya ilə bağlı təsəvvürləri əks etdirən mif mətnlərinin azlığını tədqiqatçılar bir tərəfdən tanrıçılıq və şamanizmdəki ölüb-dirilmə ideyası ilə bağladıqları halda, başqa bir tərəfdən yaradılış hadisəsinə nisbətən dünyanın sonu fikrinin qədim türklərin düşüncələrini məşğul etməməsi ilə izah edirlər. Dünya nizamının, tarazlığının pozulması türk esxatoloji mətnlərində yalnız təbii fəlakətlərlə deyil, həm də ictimai mənəvi əxlaqi dəyərlərin pozulması ilə müşayiət olunur. Təbii fəlakətlər etik-mənəvi, ictimai-əxlaqi dəyərlərlə paralel şəkildə təsvir olunur. «Kitabi-Dədə Qorqud» dastanında Oğuz cəmiyyətinin ənənəvi dəyərlər baxımından əxlaqa, tərbiyəyə zidd sayıla bilən davranışları Dədə Qorqudun dilindən bir-bir sadalanır, bu davranışların gələcək bəlaların xəbərçisi olduğu söylənilir: «... Bir kişinin bir kişi qatında hörməti, izzəti qalmaya. Atanın, ananın oğula, qıza şəfqəti və mərhəməti olmaya. Oğul və qız xud anaları hərgiz riayət qılmaya. Ataları turırkən oğullar söyləyə. Analar turırkən qızlar buyruq eyləyə. Ol günləri görmədən söylədüm mən Dədə Qorqud. Görmüşcə inanın mənə, Oğuz qövmi derlər. Ol günlərə qamağıl, mənim canım alğıl, qadir Tanrum», - deyə o günləri görmək istəmədiyini açıqca ifadə edir (5, s. 83-84).

Qiyaməti hazırlayan əlamətlərin başında insanın yaradana asi olması, doğru yoldan azması, fitnə fəsadın baş alması, mənəvi əxlaqi dəyərlərin yox olması durur.

Altaylarda qiyamət gününə «kalqançı çağ» deyilir ki, bu inanışa görə bir zaman gələcək ki, yer üzündə insanların sayı azalacaq, yamanlıq, pislik, şər yer üzünü bürüyəcək, cəhənnəmin sahibi Erlik yer üzünə yaxınlaşacaq, xeyir başlanğıcı Ulgen unudulacaq, xeyirxah qüvvələrlə şər ruhlar savaşacaq, sonda Ulgen təkbaşına qalacaq. Türk şaman mətnlərində Ulgenin məhv edəcəyi insanlar yalnız Erliyə uyan günahkar bəndələrdir (6. s. 138-140).

«Kalqançı çağ» və ya «uluğ kün» kosmos və həyatın son mənasına uyğun gələrək kosmik düzümün pozulması, dünyanın nizamdan çıxması kimi qəbul edilir. Əbu Həyyanın «Kitab əl-idrak» əsərində «hesab, saymaq» kimi mənalandırılan «Sağış» sözü var ki, «Kitabi-Dədə Qorqud»da:

Sağış günündə ayna görkli
Ayna günü oquyanda xütbə görkli, – deyimində rast gəlinir (7, s.22). «Sağış» günü ifadəsi Hesab günü, Qiyamət günü, mizantərəzi qurulub Haqq-hesab çəkilən gündür. Məhz bu baxımdan qiyamət anlamı «sağış»la-saymaq, hesabla əlaqələndirilir (2, s. 118-119).

Türk düşüncəsində günahkarların cəzalandırılması, günahsızların isə mükafatlandırılması dünyanın yenidən yaradılmasına işarədir.

Yaradılış daim inkişafdadır ki, bu inkişafın, bu təzələnmənin bir pilləsi də xaosdan kosmosa keçid anında olana bənzər qiyamətdir. Qiyamətin gəlişindən sonrakı çağ isə dünyanın yenidən və tamamilə təzələnməsi olacaqdır.

İslamda axır zaman istilahı dinlər tarixindəki esxatologiya (axirət bilgisi) ilə əlaqəsi tam eyni deyildir. Axır zaman qiyamətə yaxınlaşan son dövrü, zamanın və aləmin sonunu və ya son günlərini ifadə edir. Ancaq bu sonu bilmək bəşər övladının gücündən kənardadır. İnsanın əcəli (ölümü) kimi aləmin də sonunu bilmək və gerçəkləşdirmək yalnız Allaha aiddir. İslam hədislərində dini həyatın zəifləməsi və əxlaqın itməsi qiyamət əlamətlərini özündə təcəssüm etdirir (1, s. 543-544). Qiyamətin qopması Qurani-Kərimdə saat* kəlməsi ilə ifadə edilmiş və bu anı Allahdan başqa heç kimsə bilmir. Gözlənəcək və çox sürətli olacaq hadisənin dəhşətinə göylər və yer də dayanmayacaq, o günün dəhşətindən uşaqların saçları (körpələrin) ağaracaq, analar öz südəmər körpələrini unudacaq, hamilələr uşaqlarını salacaq və bütün insanlar çaşqın vəziyyətdə qalacaqlar (1, s.546).

Anadolunun yaşlı yörüklərinin təsəvvürlərində dünyanın sonunu, qeyri-müəyyən gələcəyi səciyyələndirən: ... Qiyamət yaxınlaşan zaman bina ilə zina artacaq. Dağlardakılar kəndlərə, kəndlərdəkilər də şəhərlərə doluşacaqlar» - sözləri də qiyamət anlayışına, ənənəvi türk mədəniyyətində esxatologiya ilə bağlı təsəvvürlərə aydınlıq gətirə bilər (2, s. 114). İnsanın Tanrıya asi olması sosial sferada ata-oğul, ana-qız və s. arasında əxlaqi dəyərlərin silinməsinə səbəb olacaqdır. Sosial əxlaqi dəyərlərin pozulması təbiət hadisələrinin dəyişilməsi ilə müşayiət olunur. Türk düşüncəsində Ay və Günəşlə, astral kultla bağlı inanclar dünyanın sonu haqqında təsəvvürlərə aydınlıq gətirə bilir. İnama görə bir gün ayla günəş birləşib dünyanı yaxıb-yandıracaq və qiyamət qopacaqdır. Bir başqa inama görə isə günəş qərbdən doğduğu gün sular qabaracaq və hər yanı sel-su basacaqdır ki, bunun da axırında dünya üzü düm-düz olacaqdır (8, s. 72-73).

Türk mifologiyasında həmçinin Dəmir kazıkın göyün dirəyi olduğu və bütün ulduzların bu tərpənməz dirək ətrafında fırlandığı qeyd edilir. Dəmir kazık (qütb ulduzu) ulduzunun dönərək hərəkət etməsi və Yeddi karakşı (yeddi oğru) ulduzunun Akbozat ilə Gökbozatı (bəzən də Ülkər qızını) oğurladıqları gün axır zaman olacaqdır inancının mövcud olmasıdır. Altay dastanlarında göyün dirəyinin, yəni Dəmir kazıkın alınmasından söz edilir ki, bu da göyün altının üstünə çevrilməsidir və qiyamətin qopmasının obrazlı deyimidir (9, s. 31).

V.Verbitskinin dünyanın sonu ilə bağlı yazıya aldığı mif mətnləri şamanizm dünyagörüşünün təsiri altında formalaşmışdır. Həmin mif mətnindən aydın olur ki, əxlaqi və dini dəyərlərin itirilməsi ilə xeyir Tanrısının insanlardan uzaqlaşması yeraltı dünyada yaşayan şər qüvvələrin təmsilçisi olan Erlik və onun əlaltılarının yer üzünə çıxması baş verir. Xeyir Tanrısının tamamilə unudulması ilə törə pozulacaq, fırtına qopacaq, qara su qanla qarışıb axacaq, yer uğuldayacaq, dağlar silkələnəcək, dəniz çalxalanıb dibi görünəcək və yerin altı üstünə gələcəkdir. Azmış insanları Erliyə uymamağa, haqq yoluna qaytarmaq məqsədilə Tanrı tərəfindən yer

üzünə göndərilən Mayderenin qanı alova çevrilib bütün yer üzündən canlıları məhv edəcəkdir. Tanrının əllərini bir-birinə vuraraq «Ölülər, qalxın!» - deməsi ilə onun səsi və nəfəsindən bütün ölülər diriləcək. Tanrının ağzından çıxan alov bütün yer üzünü bürüyəcək və Erlikə uyan insanlar Şər ruhların arxasınca cəhənnəmə gedəcəklər. Tanrıya inanan günahsız insanlar isə Tanrı tərəfindən mükafatlandırılaraq onunla birlikdə qalacaqlar (6, s. 139-142).

Qazax baxşılarının dualarında dünyanın sonu gələndə bütün dağların uçub dağılacağı, dərələr, təpələrin xırmanlanıb yerlə bir olacağı, yer üzünü alov bürüyəcəyi və qiyamətin başlanması haqqında məlumatlara da rast gəlirik (10, s. 133). Bu şaman mətnlərindən aydın olur ki, xeyir tanrısı Ülgen hər kəsi deyil, insanların ən yaxşılarını, günahsızları cənnətlə mükafatlandıracaq. Deməli, yaradılmış yeni dünya günahlardan arınmış bir dünya olacaqdır. Türk esxatoloji düşüncəsi qiyamətin bu məqsədini təsdiq etməkdədir.

İslam hədislərində qiyamətdən öncə ortaya çıxacaq qiyamət əlamətləri sırasına bir tərəfdən dini və əxlaqi dəyərlərin itməsi, ikinci bir tərəfdən isə Dəccalın saxta xilaskarlıq missiyasının qarşısını almaq üçün İsa məsihin və ya Sahib Əzzamanın yer üzünə dönüşü, kosmik düzümün pozularaq günəşin Qərbdə doğub Şərqdə batması kimi təbiət hadisələrinin baş verməsi və s. daxildir (1, s. 546).

«Qurani-Kərim»də qiyaməti anladan zamandan bəzi surələrdə ətraflı danışılır. Məsələn, «Əl-İnfitər» («Parçalanma») surəsində «göy parçalanacağı, ulduzlar dağılıb səpələnəcəyi, dənizlər (qaynayıb bir-birinə) qarışacağı, qəbirlər çevriləcəyi (qəbirlərin altı üstünə çevrilib ölülərin oradan çıxacağı) zaman»dan xəbər verilir (11, s. 753, 1-4-cü ayə). «Ət-Təkvir» («Sarınma») surəsində «Günəş (əmmamə kimi) sarınıb büküləcəyi (sönəcəyi), ulduzlar göydən qopub yağış dənələri kimi yerə səpələnəcəyi, dağlar yerindən qopardılacağı (toz kimi havada uçacağı), dənizlər od tutub yanacağı (və ya dolub daşacağı), göy (yerindən) qopardılacığı (və ya büküləcəyi)» zamandan (11, s. 751-752, 1-11-ci ayə), «əl-Mürsəlat» («Bir-birinin ardınca göndərənlər») surəsində «ulduzlar sönəcəyi, göy yarılacağı, dağlar parça-parça olub dağılacağı» (11, s. 742, 8-10-cu ayə) və s. zamandan danışılır.

Fikrimizcə, müqəddəs «Qurani-Kərim»dən gətirilmiş bu nümunələrdəki qiyamət ilə bağlı hökmlər ilə əski türk düşüncəsində qiyamətin qopacağı zaman göyün yıxılması, yerin çökməsi, dünya nizamının pozulması, yer və insan nəslinin məhv olması, dağların dağılacağı, dənizlərin çalxalanıb dibinin görünməsi və s. hökmlər arasında oxşarlıqların mövcudluğu təkzibolunmaz dəlil kimi qəbul olunmalıdır.

Esxatoloji miflər kosmoqonik miflərin dəyişik şəklidir, çünki burada kosmosdan xaosa doğru əks proses baş verir. Lakin yaradılış daim inkişaf və yeniləşmə vəziyyətdə düşünüldüyündən qiyamət öz ardınca dünyanın həm də təzələnməsini gətirən bir dövrə olaraq

qavranılır. Unutmayaq кi, tanrıçılıq dini inancı içərisində yaşayan qədim türкləri esxatologiya problemi, dünyanın sonu məsələsi yaradılışdan daha az maraqlandırdığına görə dünyanın sonu ilə bağlı təsəvvürlər xristianlıq, buddizmin təsiri altında formalaşmışdır кi, bu da son nəticədə türкlərdə qiyamət anlayışı şəklində öz ifadəsini tapmışdır.

## ƏDƏBİYYAT


1. İslam ensiкlopedisi. Cilt I. İstanbul, 1988.
2. Cəlil Bəydili (Məmmədov). Türк mifoloji sözlüyü. Bakı, Elm, 2003.
3. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı, Yazıçı, 1987.
4. Ögel B. Türк mitolojisi (Kaynaкları ve açıкlamaları ile destanlar). I cilt, Anкara, 1989.
5. Hacıyev T., Vəliyev K. Azərbaycan dili tarixi. Bakı, Maarif, 1983.
6. Вербитский В.И. Алтайские инародцы. Москва, 1893.
7. Kitabi-Dədə Qorqud. Əsl və sadələşdirilmiş mətnlər. Bakı, «Öndər» nəşriyyatı, 2004.
8. Günay Ü., Güngör H. Türк din tarihi. İstanbul, 1998.
9. Füzuli Bayat. Türк esxatoloji düşüncəsində dünyanın sonu?. Kalqançı çaк. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (On dördüncü кitab). Bakı, Səda, 2003, s. 27-40.
10. Şaman əfsanələri və söyləmələri. (Hazırlayan Füzuli Gözəlov (Bayat), Cəlal Məmmədov). Bakı, 1993.
11. Qurani-Kərim (ərəb dilindən tərcümə edənlər Z.M.Bünyadov, V.M.Məmmədəliyev). Bakı, 2001.


## ЭСХАТОЛОГИЯ В ТЮРКСКОМ МИФОЛОГИЧЕСКОМ МЫШЛЕНИИ


## М.М.МАМЕДОВ


## РЕЗЮМЕ


Эсхатологические мифы, в которых говорится о характеризующих конец Вселенной, о Судном дне, о космическом крушении, выступают как выразители последней границы космологической модели мира. Эти мифы являются измененной формой космогонических мифов, т.е. в них проистекает противоположный процесс – от космоса к хаосу.

Немногочисленность в тюркском мифологическом мышлении, связанных с эсхатологией представлений, исследователи связывают с двумя факторами. Первое – существующая в тенгрианстве и шаманизме, идея смерти-возрождения. Второе – более пристальное внимание древних тюрков к событию создания, чем к концу света. А нарушение мирового порядка, равновесия в тюркских эсхатологических текстах сопровождается не только природными катаклизмами, но и нарушением нравственных ценностей общества.